# Partiya rəisi(Mədən-geofiziki materialların kompleks interpretasiyası partiyası) vəzifəsi üzrə test tapşırıqları

1. Geoloji-texnoloji və geokimyəvi tədqiqatlar hansı quyularda aparılmır

A) Struktur-axtarış

B) İstismar

C) Kəşfiyyat

D) Parametrik

E) Mühəndisi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Neft və qaz quyularında Geoloji-texnoloji və geokimyəvi tədqiqatların aparılması üzrə texniki təlimat. Bakı, 2020

2. Hansı variant Geoloji-texnoloji və geokimyəvi tədqiqatların əsas vəzifələrinə aid deyil?

A) Kimyəvi vəzifələr

B) İnformasiya vəzifəsi

C) Elmi-tədqiqat vəzifəsi

D) Texnoloji vəzifələr

E) Plan-iqtisadi vəzifələr

Testin çətinlik dərəcəsi: orta

İstinad: Neft və qaz quyularında Geoloji-texnoloji və geokimyəvi tədqiqatların aparılması üzrə texniki təlimat. Bakı, 2020

3. Geoloji-texnoloji və geokimyəvi tədqiqatların informasiya mənbələrinə aid olmayanı göstərin

A) Şlam nümunələri

B) Qazma prosesinin texnoloji parametrləri

C) Qazma avadanlığının elementlərinin xüsusiyyəti

D) Qazma prosesində hesablanmış vaxt itkisi

E) Qazma məhlulunun nümunələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Neft və qaz quyularında Geoloji-texnoloji və geokimyəvi tədqiqatların aparılması üzrə texniki təlimat. Bakı, 2020

4. Geofiziki tədqiqatlar zamanı elektrik karotajı (FXM,QP) quyularda nəyi ölçür?

A) Süni yaradılmış elektrik sahəsini

B) Süni yaradılmış dalğaları

C) Qazma məhlulunun miqdarını

D) Layların təbii radioaktivliyi

E) Süni yaradılmış raioaktivliyi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

5. Hansı karotajla gil məhlulunun xüsusi müqaviməti ölçülür?

A) Mikrokarotaj

B) Qamma-qamma karotaj üsulu (QQK)

C) Rezistivimetriya

D) Yan karotaj

E) Neytron qamma karotaj (NQK)

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

6. Fərz olunan xüsusi müqavimət  üsulunun hansı növü var?

A) Yan karotaj zondlama üsulu (YKZ)

B) Qamma-qamma karotaj üsulu (QQK)

C) Neytron qamma karotaj (NQK)

D) Qamma karotaj (QK)

E) Akustik karotaj

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

7. Hansı radioaktiv karotajın növünə aiddir?

A) Akustik karotaj

B) Qamma-qamma karotaj (QQK)

C) Mikrokarotaj üsulu (MKZ)

D) Yan karotaj zondlama üsulu (YKZ)

E) Mikroyankarotaj üsulu (MYK)

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

8. Elektrodlar arasındakı məsafənin nisbətinə görə elektrik karotajının hansı növü var?

A) Qradiyent zond

B) Potensial və enerjetik zond

C) qısa və uzun zond

D) Pillə və qradient

E) Qısa zond

Testin çətinlik dərəcəsi: asan

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

9. Elektrik karotajı üsulunda qradient zondun hansı növləri var?

A) İkiqütblü və üçqütblü tavan, daban qradiyent zond

B) Birqütblü və üçqütblü tavan, daban qradiyent zond

C) Birqütblü, ikiqütblü və üçqütblü tavan, daban qradiyent zond

D) Birqütblü tavan və daban qradiyent zond

E) Üçqütblü tavan və daban qradiyent zond

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

10. Elektrik karotajı üsulunda potensial zondun hansı növləri var?

A) İkiqütblü tavan və daban potensial zond

B) Birqütblü, ikiqütblü və üçqütblü ardıcıl, çevrilmiş potensial zond

C) Üçqütblü çevrilmiş və ardıcıl potensial zond

D) İkiqütblü və üçqütblü tavan, daban potensial zond

E) Birqütblü çevrilmiş və ardıcıl potensial zond

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

11. Quyu potensialı hansı təbii fiziki-kimyəvi proseslər nəticəsində əmələ gəlir?

A) Lay sularında həll olunmuş duzların ionlarının gil məhluluna diffuziyası

B) Neft və qazın fiki-kimyəvi xassələri əsasında

C) Süxurların sıxlığına görə

D) Sedmentasiya hövzəsinin geokimyəvi şəratinin dəyişməsi əsasında

E) Layların minerallaşma dərəcəsi əsasında

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

12. Rezistivimetriya üsulunun çatışmayan xüsusiyyətləri hansılardır?

A) Müqavimətin qiymətinin xüsusi çənlərdə ölçülməsi

B) Rezistivimetr əmsalının zaman müddətində qeyri sabitliyi

C) Lay sularının həll olunmuş duzların ionlarının gil məhluluna diffuziyası

D) Sulu gil məhlulunun müqavimət qiymətinə təsiri

E) Süxurların sıxlığının düzgün ölçülməməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

13. Radioaktiv karotajın hansı növü var?

A) Akustik üsul

B) Qamma üsulları

C) Yan karotaj və mikrokarotaj üsulları

D) Rezistivimetriya üsulu

E) Mikrokarotaj üsulu

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

14. Radioaktiv karotajın qamma üsulu nəyi ölçür?

A) Quyu kəsilişi boyu təbii yaranmış qamma şüalanma sahəsini

B) Süxurlarda təbii yaranmış neytronlar selini

C) Quyu kəsilişi boyu neytronlar selinin süxur ilə əlaqəsi sahəsində neytronların sıxlığı

D) Quyu kəsilişi boyu neytronların udulması nəticəsində yaaranmış qamma şüalarını

E) Süxur iti sürətli neytronlarla şüalandırılır və istilik neytron sıxlığı və qamma şüalanması

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

15. Qamma karotaj (QK) diaqramında əyrilər süxurlar üzrə necə yazılır?

A) Qum və gil layları qarşısında qamma əyriləri maksimum qiymətlər alınır

B) Qum və gil layları qarşısında qamma əyriləri minimum qiymətlər alınır

C) Gilli laylar qarşısında qamma əyriləri minimum qiymətlər alınır

D) Qum layları qarşısında qamma əyriləri maxsimum qiymətlər alınır

E) Qum layları qarşısında qamma əyriləri minimum qiymətlər alınır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

16. Qamma karotaj üsulu ilə hansı geoloji məlumatlar öyrənilir?

A) Kəsiliş üzrə süxurların litologiyası

B) Neftli və qazlı süxuların keçiriciliyinin qiymətləri

C) Neftdoyumluluq

D) Neft və qazın çıxarılabilən ehtiyatı

E) Neft və qaz fiziki-kimyəvi xassələri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

17. Neytron karotaj üsulunda hansı parametr təyin olunur?

A) Neft və qaz fiziki-kimyəvi xassələri

B) Neftli və qazlı süxuların keçiriciliyinin qiymətləri

C) Layların sərhəddinin və qalınlığının təyini

D) Qazma məhlulunun miqdarı

E) Su-neft, neft-qaz konturu

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

18. Hansı məlumatlar implus neytron karotajı üsulunda öyrənilir?

A) Qazma müddətinin təyini

B) Su-neft, Neft-qaz, Su-qaz konturlarının təyini

C) Litologiyanın dəqiqləşdirilməsi

D) Quyu kəsilişinin araşdırılması

E) Qazma baltasınn yeyilmə intervalının təyini

Testin çətinlik dərəcəsi: çətin

İstinad: N.V. Məmmədov, Ə.K.İsmayılov. Quyuların geofiziki tədqiqatı üsulları. Bakı, 2002

19. Hansı variant qruntların genetik tipinə aid deyil?

A) Maqmatik

B) Metomorfik

C) Çökmə

D) Kristallik

E) Texnogen

Testin çətinlik dərəcəsi: orta

İstinad: Q.Ş.Məmmədov, A.J.Həşimov, Ə.Ə.Verdiyev, E.A.Məmmədov. Mühəndis geologiyasının əsasları. Bakı, 2012

20. Qruntların aşınaraq öz yerində əmələ gətirdiyi çöküntülər hansıdır?

A) Elüvial

B) Delüvial

C) Kollüvial

D) Allüvial

E) Prolüvial

Testin çətinlik dərəcəsi: orta

İstinad: Q.Ş.Məmmədov, A.J.Həşimov, Ə.Ə.Verdiyev, E.A.Məmmədov. Mühəndis geologiyasının əsasları. Bakı, 2012

21. Sel axınları nəticəsində formalaşan çöküntülər hansılardır?

A) Delüvial

B) Prolüvial

C) Elüvial

D) Kollüvial

E) Allüvial

Testin çətinlik dərəcəsi: orta

İstinad: Q.Ş.Məmmədov, A.J.Həşimov, Ə.Ə.Verdiyev, E.A.Məmmədov. Mühəndis geologiyasının əsasları. Bakı, 2012

22. Çayların geoloji fəaliyyəti ilə əlaqədar toplanmış çöküntülər hansıdır?

A) Kollüvial

B) Delüvial

C) Prolüvial

D) Elüvial

E) Allüvial

Testin çətinlik dərəcəsi: orta

İstinad: Q.Ş.Məmmədov, A.J.Həşimov, Ə.Ə.Verdiyev, E.A.Məmmədov. Mühəndis geologiyasının əsasları. Bakı, 2012

23. Aşınan qruntların öz ağırlığı hesabına yamaclarda toplanması nəticəsində yaranan süxurları göstərin

A) Allüvial

B) Elüvial

C) Delüvial

D) Kollüvial

E) Prolüvial

Testin çətinlik dərəcəsi: orta

İstinad: Q.Ş.Məmmədov, A.J.Həşimov, Ə.Ə.Verdiyev, E.A.Məmmədov. Mühəndis geologiyasının əsasları. Bakı, 2012

24. Qarın, buzun əriməsi hesabına yaranan suların fəaliyyəti hansı çöküntülər toplanır?

A) Elüvial

B) Kollüvial

C) Delüvial

D) Prolüvial

E) Allüvial

Testin çətinlik dərəcəsi: asan

İstinad: Q.Ş.Məmmədov, A.J.Həşimov, Ə.Ə.Verdiyev, E.A.Məmmədov. Mühəndis geologiyasının əsasları. Bakı, 2012

25. Emal və interpretasiya işlərində düz və tərs məsələlərin mərhələlərinə hansı aid deyil?

A) Sistemli giriş

B) Filtrləmə

C) Optimallıq meyarı

D) Avtomatlaşdırma

E) Formalaşma

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.Əhmədov. Geofiziki məlumatlar və onların interpretasiyası. Bakı, 2001

26. Ağırlıq qüvvəsinin dəyişməsi nə ilə əlaqədardır?

A) Yer quruluşunun dəyişməsi,relyefi,daxili quruluşunun əmələ gəlməsi və üst mantiya ilə əlaqədardır

B) Təyziqin artması ilə əlaqədardır

C) Lay sularının sıxlığı

D) Temperatur ilə əlaqədardır

E) Məsaməliyin dəyişməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.A.Xələfli. Geofiziki kəşfiyyata giriş. Bakı, 2009

27. Yüksəklik və ara təbəqə düzəlişlərinin ümumi adı hansıdır?

A) Faya düzəlişi

B) Buge düzəlişi

C) Relyef düzəlişi

D) Laplas düzəlişi

E) Heç biri

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.A.Xələfli. Geofiziki kəşfiyyata giriş. Bakı, 2009

28. Antiklinal qırışıqlarda minimal qravitasiya anomaliyasının olma səbəbi nədir?

A) Litoloji tərkibdən asılıdır

B) Sıxlığı çox olan layın qalınlıqı az olduqda

C) Böyük qalınlıqlı layların yer səthinə çıxması

D) layların dik yatımı halında

E) Tağda karbohidrogenlərin yerləşməsnə görə

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.A.Xələfli. Geofiziki kəşfiyyata giriş. Bakı, 2009

29. Axtarış-kəşfiyyat işlərində dağların qravimetrin göstəricisini azaltmasının səbəbi nədir?

A) Dağlarda qravimetrin göstəricisi artırır

B) Dağ süxurlarının yüksək sıxlıqlı olduğu üçün

C) Qravimetrin ölçü yükünü yuxarı cəzb etdiyi üçün

D) Dağlarda olan dəyişkən temperatura görə

E) Dağ süxurlarının litoloji bütövlüyünün pozulmasına görə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B. Aslanov. Qravi-Kəşfiyyat kursu. Bakı, 2011

30. Axtarış-kəşfiyyat işlərində dərələrin qravimetrin göstəricisini azaltmasının səbəbi nədir?

A) Qravimetrin ölçü yükünü aşağı çəkən labüd qüvvənin olmaması üçün

B) Dərələr qravimetrin göstəricisini artırır

C) Litologiyanın müxtəlifliyinə görə

D) Dərələrdə toplanan yerüstü suların təsirinə görə

E) Heç biri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B. Aslanov. Qravi-Kəşfiyyat kursu. Bakı, 2011

31. Ağırlıq qüvvəsinin qiymətləri hansı cihazlar vasitəsi ilə ölçülür?

A) Maqnitometrik cihazlarla

B) Termometrik cihazlarla

C) Radiometrik cihazlarla

D) Qravimetrik cihazlarla

E) Seysmik cihazlarla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: B. Aslanov. Qravi-Kəşfiyyat kursu. Bakı, 2011

32. Diapir strukturlar hansı növ qravitasiya anomaliyaları ilə xarakterizə olunur?

A) Antiklinal

B) Dizyunktiv

C) Minimum

D) Sinklinal

E) Maksimum

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.A.Xələfli. Geofiziki kəşfiyyata giriş. Bakı, 2009

33. Geoloji mühitin texnogen dəyişməsinə səbəb olan amillərdən biri düzgen deyil:

A) Geoloji proseslər - subasma, çökmə və s.

B) Texnogen litogenez

C) İstilik

D) Qırılmalar

E) Titrəyişli sahələr

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.Ə.Məsimov, E.A.Məmmədova. Hidrogeoloji və mühəndisi-geolojitədqiqatlarda geofiziki və aerokosmik üsullar. Bakı, 2008

34. Mühəndisi qurğuların özüllərinin öyrənilməsi zamanı aparılan geofiziki üsulların məqsədlərindən biri deyil:

A) Kövrək çöküntü sahələrinin xəritələnməsi

B) Süxurların kimyəvi tərkibinin təyini

C) Ana süxurların yatım dərinliyinin təyini

D) Kəsilişin üst hissəsinin dəqiq bölgülərinin aparılması

E) Qrunt sularının səviyyəsinin təyin edilməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.Ə.Məsimov, E.A.Məmmədova. Hidrogeoloji və mühəndisi-geolojitədqiqatlarda geofiziki və aerokosmik üsullar. Bakı, 2008

35. Çat süxurlarında yeraltı suların yatım dərinliyinin təyini yalnız bir halda mümkündür:

A) Suyun duzluluğu 50‰-dən çox olarsa

B) Süxurlar su ilə tam doymuş olarsa

C) Sulu süxurların temperaturu ətraf süxurların temperaturundan çox olarsa

D) Süxurların yatım bucağı 25 dərəcədn az olarsa

E) həmin süxurlar ya yer səthinə çıxarsa, ya da kifayət qalınlıqlı müasir çöküntülərlə örtülmüş olarsa

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.Ə.Məsimov, E.A.Məmmədova. Hidrogeoloji və mühəndisi-geolojitədqiqatlarda geofiziki və aerokosmik üsullar. Bakı, 2008

36. Hansı variant incə dənəciklər ilə mühit arasındakı qarşılıqlı əlaqənin məhsulu hesab edilir?

A) Məsaməlilik

B) Keçiricilik

C) Nəmlik

D) Kapilyarlıq

E) Kolloidlik

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Ş.A.Pənahi, V.M. Kərimov, A.Ş.Tağıyev. Mühəndisi geologiya. Bakı, 2018

37. Süxurun dənəciklərinin ölçülərinə əsaslanan variantı göstərin

A) Fraksiya tərkibi

B) Qranulometrik tərkib

C) Fiziki tərkib

D) Litoloji tərkib

E) Petrifizki tərkib

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ş.A.Pənahi, V.M. Kərimov, A.Ş.Tağıyev. Mühəndisi geologiya. Bakı, 2018

38. V.V. Oxotin təsnifatına görə qumlar neçə fraksiyaya bölünür?

A) 1

B) 2

C) 3

D) 4

E) 5

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ş.A.Pənahi, V.M. Kərimov, A.Ş.Tağıyev. Mühəndisi geologiya. Bakı, 2018

39. Məsaməliyi hanı düsturla hesablamaq olar? N-ümumi məsaməlik, Vm-məsamələrin həcmi, Vqr-qruntun ümumi həcmi

A) n=((Vm-Vqr))/Vqr)*100%

B) n=(Vqr/Vm)*100%

C) n=(Vm/Vqr)*100%

D) n=(2Vm/Vqr)*100%

E) n=(Vm/2Vqr)*100%

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ş.A.Pənahi, V.M. Kərimov, A.Ş.Tağıyev. Mühəndisi geologiya. Bakı, 2018

40. Süxurun xarici qüvvələrin təsiri altında müəyyən forma alması və təsir kəsildikdən sonra həmin formanı saxlaması hansı xarakterinə aiddir?

A) Plastiklik

B) Bərklik

C) Axıcılıq

D) Nəmlik

E) Suvericilik

Testin çətinlik dərəcəsi: asan

İstinad: Ş.A.Pənahi, V.M. Kərimov, A.Ş.Tağıyev. Mühəndisi geologiya. Bakı, 2018

41. Plastiklik ədədi necə hesablanır? WL- axıcılıq sərhədi, Wp-düyürlənmə sərhədi

A) İp=2WL-Wp

B) İp=WL-Wp

C) İp=WL-2Wp

D) İp=(WL-Wp)/2

E) İp=(WL-Wp)/Wp

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ş.A.Pənahi, V.M. Kərimov, A.Ş.Tağıyev. Mühəndisi geologiya. Bakı, 2018

42. Plastiklik ədədinin qiyməti gillər üçün necədir?

A) İp=20

B) İp<10

C) İp>17

D) İp<17

E) İp<5

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ş.A.Pənahi, V.M. Kərimov, A.Ş.Tağıyev. Mühəndisi geologiya. Bakı, 2018

43. Quyu qazılarkən geoloq hansı müşahidə və ya tədqiqat işlərini aparır?

A) Qazma baltasının seçilməsi

B) Qazma sürətinin təyin edilməsi

C) Quyuya sifariş veriləcək kəmərlərinin ölçülərinin müəyyən olunması

D) Qazma vaxtının müəyyən olunması

E) Quyunun kompleks geoloji kəsilişinin tərtib edilməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.Ə.İsgəndərov. Neft-mədən geologiyası və neft-qaz yataqlarının işlənilməsi. Bakı, 1968

44. Kern nümunələri kəşfiyyat quyularında hansı dərinlikdən götürülür?

A) Markir horizontundan

B) Kəsiliş boyu

C) Gilli süxurlardan

D) Məhsuldar horizonta kimi

E) Su laylarından

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Ə.İsgəndərov. Neft-mədən geologiyası və neft-qaz yataqlarının işlənilməsi. Bakı, 1968

45. Süxurların kəsilişinin öyrənilməsi şlam analizinə əsasən necə yerinə yetirilir?

A) Gil məhlulu ilə süxur qırıntıları yer səthinə çıxır və analiz edilməsi hesabına

B) Qazma baltasının yeyilməsi

C) Süxurda fauna qalıqlarına görə

D) Qazma borularının sıradan çıxması

E) Süxurun sementlənməsinə görə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M.Ə.İsgəndərov. Neft-mədən geologiyası və neft-qaz yataqlarının işlənilməsi. Bakı, 1968

46. Qazma zamanı baltanın az yeyilməsinin izahı nədir?

A) Qazılan süxur əhəngli qumdaşılardan təşkil olunub

B) Qazılan süxur əhəngdaşılar və gillərdən təşkil olunmuşdur

C) Qazılan süxur əhəngli qumdaşılar və gillərdən təşkil olunmuşdur

D) Qazılan süxur gillərdən təşkil olunub

E) Qazılan süxur əhəngdaşılardan təşkil olunub

Testin çətinlik dərəcəsi: çətin

İstinad: M.Ə.İsgəndərov. Neft-mədən geologiyası və neft-qaz yataqlarının işlənilməsi. Bakı, 1968

47. Hansılar quyuların geoloji tədqiqatı ilə öyrənilir?

A) Süxurların xüsusi müqaviməti

B) Quyu potensialı

C) Süxurların litologiyası

D) Süxurların elektrik keçirmə qabiliyyəti

E) Süxurlarda təbii radioaktivlik

Testin çətinlik dərəcəsi: asan

İstinad: M.Ə.İsgəndərov. Neft-mədən geologiyası və neft-qaz yataqlarının işlənilməsi. Bakı, 1968

48. Anomal yüksək lay təzyiqini qazma prosesində necə təyin etmək olar?

A) Qazma məhlulunun xüsusiyyətlərinə əsasən

B) Seysmik məlumatlara əsasən

C) Laylarda aparılan analizlərə əsasən

D) Ətraf quyuların karotaj məlumatlarına əsasən

E) Lay sularına görə

Testin çətinlik dərəcəsi: asan

İstinad: N. Paşayev. Quyuların geofiziki tədqiqatı məlumatlarının emal və interpretasiyası. Bakı, 2010

49. Anomal yüksək lay təzyiqini qazmadan necə təyin etmək olar?

A) Litologiyaya əsasən

B) Qazma məhlulunun xüsusiyyətlərinə əsasən

C) Seysmik məlumatlara əsasən

D) LWD/MWD

E) PWD

Testin çətinlik dərəcəsi: asan

İstinad: N. Paşayev. Quyuların geofiziki tədqiqatı məlumatlarının emal və interpretasiyası. Bakı, 2010

50. Təzyiq qradiyenti 0.433 psi/ft-dən az olması hansı növ təzyiqli zona adlanır?

A) Anomal

B) Normal

C) Hoop

D) Subnormal

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: C.C. Azar, Q.R.Samuel. Qazma mühəndisliyi. Bakı, 2014

51. Verilmiş dalğalardan biri akustik karotaj zamanı yaradılan elastik dalğalara aid deyil:

A) Uzununa

B) Səthi

C) Eninə

D) Lemba

E) Törəmə

Testin çətinlik dərəcəsi: asan

İstinad: N. Paşayev. Quyuların geofiziki tədqiqatı məlumatlarının emal və interpretasiyası. Bakı, 2010

52. Dalğa mühitində cəbhənin eyni vaxtda çatdığı nöqtələri birləşdirən səthə nə deyilir?

A) Ön cəbhə

B) Arxa cəbhə

C) İzoxron

D) Şüa

E) Heç biri

Testin çətinlik dərəcəsi: asan

İstinad: N. Paşayev. Quyuların geofiziki tədqiqatı məlumatlarının emal və interpretasiyası. Bakı, 2010

53. Süxurlarda elastiki dalğaların yayılma sürətinə təsir edən əsas amillərdən biri doğru deyil:

A) litoloji-mineraloji tərkib

B) məsamələrin forma və ölçüləri

C) məsamələrin maye və qazla doyma dərəcəsi

D) süxurların sementləşmə dərəcəsi

E) süxurların keçiriciliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: N. Paşayev. Quyuların geofiziki tədqiqatı məlumatlarının emal və interpretasiyası. Bakı, 2010

54. Mayelərdə elastik dalğaların yayılması ilə bağlı hansı fikir doğrudur?

A) dalğa sürəti suyun minerallaşma dərəcəsindən temperatur və təzyiqdən asılı deyil

B) Elastiki dalğaların neft və qazda yayılma sürətləri suya nisbətən böyükdür

C) Təzyiqin artması ilə elastiki dalğaların yayılma sürəti azalır

D) keçirici layların doyma xarakterindən asılı olmayaraq mayedə elastiki dalğaların yayılma sürəti =1600m/san qəbul edilir

E) keçirici laylarda keçirmə zonasının yaranması ilə əlaqədar olaraq neftli-qazlı yaxud sulu laylarda elastiki dalğaların yayılma sürəti kəskin fərqlənir

Testin çətinlik dərəcəsi: orta

İstinad: N. Paşayev. Quyuların geofiziki tədqiqatı məlumatlarının emal və interpretasiyası. Bakı, 2010

55. Aşağıda sadalananlardan hansı geoloji xidmətin əsas vəzifələrindəndir?

A) Quyu konstruksiyasının seçilməsi

B) Su analizlərinin götürülməsi

C) Quyu kəsilişlərinin öyrənilməsi

D) Quyunun qazma aktının tərtib edilməsi

E) İstismar kəmərinin bərkidilməsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı, 1991

56. Kern anlayışı hansı variantda düzgün ifadə edilmişdir?

A) Şlam

B) Quyu divarının uçma qalıqları

C) Mikrofauna

D) Gil məhlulunun qalıqları

E) Süxur nümunəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı, 1991

57. Qranulometrik tərkib, mikrofauna təhlili, karbonatlılıq analizləri hansı məqsədlə aparılılr?

A) Quyu kəsilişlərinin korrelyasiyası üçün

B) Yeni üsulların tətbiqi üçün

C) İşlənməni səmərəli başa çatdırmaq üçün

D) Quyu kəsilişlərinin öyrənilməsi üçün

E) Ehtiyatların haesablanması üçün

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011.,Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı, 1991

58. Layların həqiqi qalınlığına görə tərtib olunan xəritə hansıdır?

A) Effektiv qalınlıqlar xəritəsi

B) Geoloji-geofiziki kəsiliş

C) Tipik kəsiliş

D) Normal kəsiliş

E)  Hasilatın sulaşması xəritəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və  neft-mədən geologiyası. Maarif. Bakı, 1991

59. Məhsuldar qat hansı şöbələrdən ibarətdir?

A)  Birinci və üçüncü

B)  Üst, orta, alt

C)  Orta, alt

D)  Üst, alt

E)  Üst, orta

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası.  ADNA. Bakı, 2011., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası.Maarif. Bakı,1991

60. Failə lay dəstəsi məhsuldar qatın hansı şöbəsinə aiddir?

A)  Təbaşir

B)  Alt

C)  Üst

D)  Orta

E)  Devon

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və  neft-mədən geologiyası. Maarif. Bakı,1991

61. Sahənin geoloji quruluşunu əyani müşahidə etməyə imkan verən, müxtəlif istiqamətlərdə fasiyanın dəyişməsini, neft və qaz laylarının sahədə mövqeyini əks etdirən xəritə hansıdır?

A)  İzobar xəritəsi

B)  Struktur xəritə

C)  Geoloji profil

D)  Trend xəritələri

E)  Geoloji-geofiziki kəsiliş

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., M.Ə.Mircəfərov, V.M.Süleymanova, L.Ə.Abdullayeva. "Neftqaz mədən geologiyası" fənninin laboratoriya işlərinin yerinə yetirilməsi üçün metodik vəsait. ADNA. Bakı, 2011

62. Aşağıda qeyd edilənlərdən hanıs struktur xəritə haqqında düzgün təsəvvür yaradır?

A)  Hər bir quyuda ölçülmüş lay təzyiqinin qrafiki təsviridir

B)  Hər hansı bir layın effektiv qalınlığının üfüqi müstəvidə izohipslərlə qrafiki təsviridir

C)  Struktur xəritələr hər hansı bir layın tavan və dabanının relyefinin üfüqi müstəviyə görə vəziyyətinin izohipslərlə təsviridir

D)  Qalıq ehtiyatların sahə üzrə paylanması xəritəsidir

E)  Məsaməliyin sahə üzrə paylanması xəritəsidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., Ə.Əlizadə, M.Babayev. Ümumi geologiya. Maarif. Bakı, 1973., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı, 1991

63. Struktur xəritələr hansı üsullarla tərtib olunur?

A)  Üçbucaq, profil, oxşatma

B)  Sürüşdürmə, üçbucaq

C)  Oxşatma, proyeksləndirmə

D)  Üçbucaq, kvadrat

E)  Kəsmə yüksəkliyi üsulu, kvadrat

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., Ə.Əlizadə, M.Babayev. Ümumi geologiya. Maarif. Bakı, 1973.,Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı, 1991

64. Altituda nədir?

A) Quyuağzından layihə dərinliyinə qədər olan məsafə

B) Sıfır müstəvisindən quyunun ağzınadək olan şaquli məsafə

C) Tavan və daban arasındakı ən qısa məsafə

D) Quy ağzından layın tavanına qədər olan məsafə

E) Quyuağzından layın dabanına qədər olan məsafə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Иванова М. М., Дементьев Л. Ф., Чоловский И. П. Нефтегазопромысловая геология и геологические основы разработки месторождений нефти и газа. М.Недра. Москва, 1985., Ə.Əlizadə, M.Babayev. Ümumi geologiya. Maarif. Bakı, 1973

65. Hesablama planı adlanan qrafiki sənəd hansı xəritənin üzərində çəkilir?

A) Cari işlənmə xəritəsinin

B) Struktur xəritənin

C) İzobar xəritəsinin

D) Effektiv qalınlıqların paylanması xəritəsinin

E) Şuxart xəritəsinin

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: Жданов М.А. Нефтегазопромысловая геология и подсчет запасов нефти и газа. М. Недра. Москва, 1981

66. Quyuların karotaj edilməsinin əsas vəzifəsi nədən ibarətdir?

A) Neftlərin mənşəyinin və süxurların yaşının öyrənilməsi

B) Neftlərin fiziki-kimyəvi xüsusiyyətlərinin öyrənilməsi, lay təzyiqinin ölçülməsi

C)  Yatağın geoloji quruluşunun dəqiqləşdirilməsi, tektonik qırılmaların növünün müəyyənləşdirilməsi

D)  Su analizlərinin götürülməsi və təhlil edilməsi

E)  Qazılan quyunun kəsilişində olan süxurların neftliliyini, litologiyasını öyrənməkdir

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı, 1961., N.V. Məmmədov.  Quyuların geofiziki tədqiqatı  üsulları. Dərs vəsaiti. N.Tusi adına ADPU-nin mətbəəsi. Bakı, 2000., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. ADNA. Bakı , 2002

67. Kəsiliş boyu süxurların xüsusi müqaviməti hansı geofziki tədqiqat üsulu ilə müəyyən edilir?

A)  Torpedləmə üsulu ilə

B)  Kavernometriya üsulu ilə

C)  Yan karotaj zondu ilə

D)  Rezistrometriya ilə

E)  Qaz karotajı ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı, 1961., N.V. Məmmədov.  Quyuların geofiziki tədqiqatı  üsulları. Dərs vəsaiti. N.Tusi adına ADPU-nin mətbəəsi. Bakı, 2000., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. ADNA. Bakı , 2002

68. Süxurların xüsusi elektrik müqavimətini və  quyuda yaranan təbii elektrik sahəsini ölçməyə əsaslanan üsulu qeyd edin.

A)  Qamma-qamma karotaj

B)  Elektrik karotajı

C)  Nüvə maqnit karotajı

D)  Akustik karotaj

E)  Mexaniki karotaj

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı, 1961., N.V. Məmmədov.  Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. N.Tusi adına ADPU-nin mətbəəsi. Bakı, 2000., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. ADNA. Bakı , 2002

69. Qamma karotajının mahiyyəti nədən ibarətdir?

A) Süxurların süni elektrik xüsusiyyətlərinin ölçülməsindən

B) Süxurların xüsusi elektrik keçiriciliyinin öyrənilməsindən

C) Süxurların sıxlığının öyrənilməsindən

D) Təbii yaranmış qamma kvantlar sahəsinin ölçülməsindən

E) Quyunun dərinlik üzrə diametrinin dəyişməsinin ölçülməsindən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı, 1961., N.V. Məmmədov.  Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. N.Tusi adına ADPU-nin mətbəəsi. Bakı, 2000., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. ADNA. Bakı , 2002

70. Quyuda dövr edən gil məhlulu içərisində olan qazlar və onların komponentlərin ölçülməsində hansı geofiziki üsuldan istifadə edilir?

A) Qaz karotajı

B) Maqnit karotajı

C) İnklinometriya üsulu

D) İmplus –neytron karotaj üsulu

E) Kavernometriya

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad:  H.M.Hüseynov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı. ADNA.Bakı, 2006., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı,1991

71. Mexaniki karotajdan hansı məqsədlə istifadə olunur?

A) Keçilən süxur qatının sərhəddini müəyyən etmək üçün

B) Hər metr qazmaya sərf olunan vaxtı ölçmək üçün

C) Dağ süxurlarının möhkəmliyini öyrənmək üçün

D) Layların litoloji tərkibini öyrənmək üçün

E) Süxurların qranulometrik tərkibini öyrənmək üçün

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: H.M.Hüseynov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı. ADNA. Bakı, 2006., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı,1991

72. Quyu kəsilişində olan layların meyl bucağı hansı üsulla öyrənilir?

A) Naklonometriya

B) Perforasiya üsulu ilə

C) Qamma karotaj üsulu ilə

D) Yan karotaj üsulu ilə

E) Neytron karotaj üsulu ilə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı, 1961., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. N.Tusi adına ADPU-nin mətbəəsi. Bakı, 2000., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. ADNA. Bakı , 2002

73. Quyu və quyu ətrafında gedən fiziki-kimyəvi proseslərin yaratdığı təbii elektrik sahəsi hansı geofiziki üsulla öyrənilir?

A) Qamma karotaj üsulu ilə

B) Neytron qamma karotajı üsulu ilə

C) İmplus neytron qamma karotajı üsulu ilə

D) Quyu potensialı üsulu ilə

E) Fərz olunan xüsusi müqavimət üsulu ilə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı, 1961., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. N.Tusi adına

ADPU-nin mətbəəsi. Bakı, 2000., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. ADNA. Bakı , 2002

74. Standart elektrik karotajının iş prinsipini qeyd edin!

A) Süxurların radioaktivliyinin və sıxlığının ölçülməsindən ibarətdir

B) Quyuda olan layların azimutlarının və meyl bucaqlarının ölçülməsindən ibarətdir

C) Gil məhlulunun xüsusi müqavimətinin ölçülməsindən ibarətdir

D) Xüsusi perforatorlar vasitəsilə istismar kəmərində deşiklərin açılmasından ibarətdir

E) 3 elektrodlu karotaj zondu vasitəsilə süxurların FXM və təbii potensiallar fərqinin ölçülməsindən ibarətdir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı, 1961., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. N.Tusi adına ADPU-nin mətbəəsi. Bakı, 2000., N.V. Məmmədov. Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. ADNA. Bakı , 2002

75. Karotaj diaqramlarının yazılı rəqəm emalı onun hansı növünə aiddir?

A) Keyfiyyət interpretasiyası

B) Vizual interpretasiya

C) Kəmiyyət interpretasiyası

D) Etibarlı interpretasiya

E) Əsaslandırılmış interpretasiya

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: https://geofizik.com/FORUM/index.php?topic=32.0.,

76. Karotaj diaqramlarının zahiri görünüşünə əsasən emalı onun hansı növünə aiddir?

A) Keyfiyyət interpretasiyası

B) Müfəssəl interpretasiya

C) Kəmiyyət interpretasiyası

D) Statistik interpretasiya

E) Detal interpretasiya

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: https://geofizik.com/FORUM/index.php?topic=32.0.,

77. Unikal yataqlarıda ilk çıxarıla bilən ehtiyatların həcmi hansı variantda düzgün göstərilmişdir?

A) <300 mln.t

B) >300 mln.t

C) 15-60 mln.t

D) 250 mln.t

E) <100 mln.t

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Иванова М. М., Дементьев Л. Ф., Чоловский И. П. Нефтегазопромысловая геология и геологические основы разработки месторождений нефти и газа, М.Недра. Москва, 1985

78. İlk çıxarıla bilən ehtiyatların həcmi 15-60 mln. t. olan yataqlar hansı kateqoriyaya aiddir?

A) Unikal

B) Xırda

C) Kiçik

D) Orta

E) Rentabel

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Иванова М. М., Дементьев Л. Ф., Чоловский И. П. Нефтегазопромысловая геология и геологические основы разработки месторождений нефти и газа, М.Недра. Москва, 1985

79. İri  yataqların ilk çıxarılabilən ehtiyatlarının həcmi  hansı variantda düzgün göstərilmişdir?

A)  >300 mln.t

B)  60-200

C)  60-300 mln.t

D)  >500 mln.t

E)  10-60 mln.t

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Иванова М. М., Дементьев Л. Ф., Чоловский И. П. Нефтегазопромысловая геология и геологические основы разработки месторождений нефти и газа, М.Недра. Москва, 1985

80. İlk çıxarıla bilən ehtiyatların həcmi <15 mln. t. olan yataqlar hansı kateqoriyaya aiddir?

A)  Unikal

B)  Orta

C)  Xırda

D)  Giqant

E)  İri

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Иванова М. М., Дементьев Л. Ф., Чоловский И. П. Нефтегазопромысловая геология и геологические основы разработки месторождений нефти и газа, М.Недра. Москва, 1985

81. Lay təzyiqi hansı cihazla ölçülür?

A)  Xüsusi termometrlərlə

B)  Dərinlik manometrləri ilə

C)  Qalvanometrlə

D)  Aerometrlə

E)  Planimetrlə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı,1991., Иванова М. М., Дементьев Л. Ф., Чоловский И. П. Нефтегазопромысловая геология и геологические основы разработки месторождений нефти и газа, М.Недра. Москва, 1985

82. Lay təzyiqinə nəzarət etmək üçün hansı xəritələr tərtib olunur?

A) Termoqram əyriləri

B) Trend xəritələri

C) İzopaxit

D) İzobarlar

E) Şuxart xəritələri

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı,1991., Иванова М. М., Дементьев Л. Ф., Чоловский И. П. Нефтегазопромысловая геология и геологические основы разработки месторождений нефти и газа, М.Недра. Москва, 1985

83. Yatağın sahəsi üzrə neftin özlülüyü və sıxlığının paylanma qanunauyğunluğunu təyini məsələsinin həlli hansı xəritələr vasitəsilə həyata keçirilir?

A) Qalıq trend xəritələri ilə

B) Trend xəritələri ilə

C) 3D modelləri ilə

D) Seysmik profillərlə

E) Müvafiq geoloji xəritə ilə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011.,

84. Yataqda lokal (təsadüfi) zonaların ayrılması üçün tərtib olunan xəritələr aşağıdakılardan hansıdır?

A) Qalıq trend xəritələri

B) Şuxart xəritələri

C) İzobar xəritələri

D) İşlənmə göstəricilərinin əyriləri

E) Trend xəritələri

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011

85. Əgər yatağın iki və daha artıq tektonik sahəsi eyni tipli geoloji quruluşa malikdirsə və lay təzyiqləri, lay flüidlərinin fiziki-kimyəvi xassələri işlənilmə prosesində eynidirsə, bu, tektonik qırılmaların hansı növü olacaqdır?

A) Ekran

B) Fay

C) Əks fay

D) Jarnir

E) Keçirici

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: М.М.Иванова, Л.Ф.Дементьев, И.П.Чоловский. Нефтегазопромыс-ловая геология и геологические основы разработки месторождений нефти и газа. М.Недра. Москва, 1985

86. Əgər yatağın iki və daha artıq tektonik sahəsi eyni tipli geoloji quruluşa malikdirsə və lay təzyiqləri, lay flüidlərinin fiziki-kimyəvi xassələri işlənilmə prosesində kəskin fərqlənirsə, bu, tektonik qırılmaların növünü göstər!

A) Ekran

B) Üstəgəlmə

C) Keçirici

D) Fleksura

E) Pilləli

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: М.М.Иванова, Л.Ф.Дементьев, И.П.Чоловский. Нефтегазопромыс-ловая геология и геологические основы разработки месторождений нефти и газа. М.Недра. Москва, 1985

87. Yüksək radioaktivliyə malik lay QK əyrisi üzərində necə qeyd edilir?

A) Gil xəttinə görə

B) Quyu divarına sıxışdırılmış

C) Simmetrik maksimumla

D) Minimum amplituda ilə

E) Orta və maksimum qiymətlərlə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: M. H. Ağamaliyev, V. F. Kiriyev, V. M. Mahmudova. Quyuların geofiki tədqiqatlarının interpretasiyasına aid laboratoriya işlərinə rəhbərlik. Azərb.NKİ-nin nəşri. Bakı, 1984., N.V.Məmmədov, Ə.K.İsmayılov .Quyuların geofiziki tədqiqatı üsulları. Dərs vəsaiti. ADNA. Bakı, 2002

88. Quyu potensialı əyrisi qarşısında qeyri-kollektor laylar əyri hansı formada olur?

A) Orta və yüksək amplituda ilə qeyd olunur

B) Minimum amplituda ilə

C) Maksimal amplituda ilə

D) Orta amplituda ilə

E) Orta və minimum amplituda ilə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: H.Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı, 1961

89. QP üsulunda diaqramı emal etdikdə hansı xətt çəkilir?

A) Keçiriçi laylar minimumla qeyd olunur

B) Gillər maksimumla qeyd olunur

C) Gil xətti

D) Məhsuldar laylar qarşısında pika əyrisi

E) Qum xətti

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: M. H. Ağamaliyev, V. F. Kiriyev, V. M. Mahmudova. Quyuların geofiki tədqiqatlarının interpretasiyasına aid laboratoriya işlərinə rəhbərlik. Azərb.NKİ-nin nəşri. Bakı, 1984

90. Tavan qradient zondunu göstərin.

A) A M elektroduna yaxın olarsa

B) A N elektroduna daha yaxın olarsa

C) Cüt elektrodlar tək elektroda nisbətən yuxarıda yerləşərsə

D) Cüt elektrodlar tək elektroda nisbətən aşağıda yerləşərsə

E) Tək elektrod ortada yerləşərsə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə.Neft-mədən geofizikası. Azərtədrisnəşr. Bakı,1961.,M. H. Ağamaliyev, V. F. Kiriyev, V. M. Mahmudova. Quyuların geofiki tədqiqatlarının interpretasiyasına aid laboratoriya işlərinə rəhbərlik. Azərb.NKİ-nin nəşri. Bakı, 1984

91. Daban qradient zondunu göstərin.

A) Cüt elektrodlar tək elektroda nisbətən aşağıda yerləşərsə

B) Cüt elektrodlardan biri tək elektroda yaxın yerləşərsə

C) Cüt elektrodlar tək elektroda nisbətən yuxarıda yerləşərsə

D) Tək elektrod cüt elektrodların arasında olarsa

E) A N elektroduna yaxın yerləşərsə

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası, Azərtədrisnəşr. Bakı,1961., M. H. Ağamaliyev, V. F. Kiriyev, V. M. Mahmudova. Quyuların geofiki tədqiqatlarının interpretasiyasına aid laboratoriya işlərinə rəhbərlik. Azərb.NKİ-nin nəşri. Bakı, 1984

92. Quyunun meyl və azimut bucaqları hansı üsulla öyrənilir?

A)  Kavernometriya

B)  Qamma karotaj

C)  Termometriya

D)  Bütün geofiki üsullarla

E)  İnklinometriya

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad:  H. Ağamalıyev, P.Tağızadə. Neft-mədən geofizikası. Azərtədrisnəşr., Bakı, 1961., N.V. Məmmədov.  Quyuların geofiziki tədqiqatı  üsulları. N.Tusi adına  ADPU-nin mətbəəsi. Bakı, 2000

93. Neftqaz yataqlarının geoloji quruluşunun dəqiqləşdiriməsi dedikdə nə başa düşülür?

A)  Yeni qazılmış quyu məlumatları əsasında karbohidrogen ehtiyatlarının hesablanması

B)  Yeni quyularda kompleks geofziki tədqiqatların emalı

C)  Yeni quyu məlumatları əsasında struktur xəritələrin və geoloji proafillərin tərtibi

D)  Bütün yataq məlumatlarının interpretasiyası

E)  Geoloji-texnoloji parametrlərin təhlili

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: Bağırov B. Ə. Neftqaz mədən geologiyası. ADNA. Bakı, 2011.

94. Neftqaz axtarışı işləri hansı mərhələlərə bölünür?

A)  Struktur, axtarış, kəşfiyyat

B)  Geoloji, geofiziki, hidrogeoloji

C)  Birbaşa, axatrış, kəşfiyyat

D)  Regional , axtarış, kəşfiyyat

E)  Geoloji,seysmik, qravimetrik

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: H.M.Hüseynov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı. ADNA. Bakı, 2006., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı, 1991

95. Neftqazlılığın proqnozlaşdırılması və qiymətləndirilməsi mərhələsi neftqaz axtarışının hansı etapına aiddir?

A) Geofizki

B) Geoloji

C) Kəşfiyyat

D) Axtarış

E) Regional

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: H.M.Hüseynov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı. ADNA. Bakı, 2006., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası.Maarif. Bakı, 1991

96. Neftqazlı obyektlərin müəyyən olunması və axatrış qazmasına başlanması mərhələsi neftqaz axtarışının hansı etapına aiddir?

A) İşlənmə

B) Axtarış

C) Regional

D) İkinçi

E) Başlanğıc

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: H.M.Hüseynov. Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı. ADNA.Bakı, 2006., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı,1991

97. Yataqların işlənməyə hazırlanması mərhələsi hansı neftqaz axtarışı etarına aiddir?

A) V mərhələyə

B) İşlənməyə hazırlıq etapına

C) Kəşfiyyat etapına

D) Qiymətləndirmə etapına

E) Sonuncu etapa

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: H.M.Hüseynov.Neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı. ADNA. Bakı, 2006., Kərimov V.Y. və b. Neft-qaz axtarışı və neft-mədən geologiyası. Maarif. Bakı, 1991

98. Yeraltı sular haqqında, onların əmələ gəlməsi, yerləşməsi, hərəkəti, onlardan istifadə olunmasından bəhs edən elm hansıdır?

A) Hidrogeologiya

B) Hidrogeokimya

C) Geologiya

D) Geodeziya

E) Sedimentologiya

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: А.А.Карцев и др. Гидрогеология нефтяных и газовых месторождений. Недра. Москва, 1972., В.П.Шугрин. Нефтегазопромысловая гидрогеология. Недра. Москва, 1973., Z.S.Hacızadə. Neft-qaz yataqlarının işlənməsində hidrokimyəvi nəzarət. ADNA. Bakı, 2012

99. Yuvenil, dehidratasiya, vadoz, inflyasiya, kondensə sedimentasiya sularının hansı əlamətinə görə təsnifatıdır?

A) Stratiqrafik aidliyinə görə

B) Hidravliki xüsusiyyətlərinə görə

C) Əmələgəlmə şəraitinə görə

D) Layın litoloji tərkibinə görə

E) Suyun kimyəvi tərkibinə görə

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: А.А.Карцев и др. Гидрогеология нефтяных и газовых месторождений. Недра. Москва, 1972., В.П.Шугрин. Нефтегазопромысловая гидрогеология. Недра. Москва, 1973., Z.S.Hacızadə. Neft-qaz yataqlarının işlənməsində hidrokimyəvi nəzarət. ADNA. Bakı, 2012

100. Yerləşmə şəraitinə görə suların hansı təsnifatı mövcuddur?

A) Kondensə, vadoz

B) Təzyiqli, təzyiqsiz

C) Yuvenil, dehidratasiya

D) Sedimentasiya, allüvial

E) Torpaq, qrunt

Testin çətinlik dərəcəsi: asan

İstinad: İstinad: А.А.Карцев, А.М.Никоноров. Нефтегазопромысловая гидрогеология. Недра. Москва, 1983., Г.М.Сухарев. Гидрогеология нефтяных и газовых месторождений. Недра. Москва, 1979., А.А.Карцев, С.Б.Вагин, В.М.Матусевич. Гидрогеология нефтегазоносных бассейнов. Недра. Москва, 1986., Ш.Ф.Мехтиев, А.Р.Ахундов, Е.А.Ворошилов. Влияние искусственного заводнения на гидрохимию нефтяного пласта. Маариф. Баку,1969

101. Fiziki-kimyəvi nöqteyi-nəzərdən suların hansı hərəkət növləri vardır?

A) Kondensə, vadoz

B) İnfiltrasiya, inflyuasiya

C) Konveksiya, molekulyar diffuziya

D) Turbulent, laminar

E) Kondensə, sedimentasiya

Testin çətinlik dərəcəsi: orta

İstinad: İstinad: А.А.Карцев, А.М.Никоноров. Нефтегазопромысловая гидрогеология. Недра. Москва, 1983., Г.М.Сухарев. Гидрогеология нефтяных и газовых месторождений. Недра. Москва, 1979., А.А.Карцев, С.Б.Вагин, В.М.Матусевич. Гидрогеология нефтегазоносных бассейнов. Недра. Москва, 1986., Ш.Ф.Мехтиев, А.Р.Ахундов, Е.А.Ворошилов. Влияние искусственного заводнения на гидрохимию нефтяного пласта. Маариф. Баку, 1969

102. Suyun sıxlığı hansı göstəricilərdən asılıdır?

A) Onların tərkibində olan natrium-xlorid, başqa duzlar və kimyəvi birləşmələrdən

B)  Suların kimyəvi tərkibindən, stratiqrafik dərinlikdən, təzyiqdən

C)  Suların əmələgəlmə və yatma şəraitindən, temperaturdan

D)  Suların temperaturundan, minerallaşma dərəcəsindən, təzyiq və həll olmuş qazların miqdarından

E)  Suların minerallaşma dərəcəsindən, temperaturdan, özlülüyündən

Testin çətinlik dərəcəsi: çətin

İstinad: İstinad: А.А.Карцев, А.М.Никоноров. Нефтегазопромысловая гидрогеология. Недра. Москва, 1983., Г.М.Сухарев. Гидрогеология нефтяных и газовых месторождений. Недра. Москва, 1979., А.А.Карцев, С.Б.Вагин, В.М.Матусевич. Гидрогеология нефтегазоносных бассейнов. Недра. Москва, 1986., Ш.Ф.Мехтиев, А.Р.Ахундов, Е.А.Ворошилов. Влияние искусственного заводнения на гидрохимию нефтяного пласта. Маариф. Баку, 1969

103. Suyun sıxlıq vahidi hansı qiymətə uyğun qəbul edilir?

A)  Distillə olunmamış suyun 120C-dəki sıxlığına

B)  Distillə olunmuş suyun 40C-dəki sıxlığına

C)  Distillə olunmamış suyun 40C-dəki sıxlığına

D)  Distillə olunmuş suyun 60C-dəki sıxlığına

E)  Distillə olunmuş suyun 140C-dəki sıxlığına

Testin çətinlik dərəcəsi: çətin

